# Şair Fesih Alioğlu yaradıcılığının uğurları



Söz yaradanın insana lütfü, bəlkə də ən böyük hədiyyəsidir. Bədii ədəbiyyat həyatın obrazlı inikası olsa da oxucu üçün bu heç də yetərli deyil. Deməli ki, ədəbiyyatın məqsədi həm də insanların ruhuna və ürəyinə yol tapmaqdır. Tarix boyu Türk dünyasında bizim belə görkəmli şair və yazıçılarımız çox olub və bu gün də həmin ədəbi ənənələr uğurla davam etdirilir.

Belə yaradıcı ədəbi simalardan biri də Türkiyənin Batman şəhərində doğulmuş, ömrünün 21 ilini Azərbaycan-Türkiyə dostluğuna və qardaşlığına həsr etmiş şair-publisist Fesih Alioğludur.

Fesih Alioğlu poeziyasının öz dəst-xətti var; canlı dildə, xalq üslubunda və məzmunca orijinal olan şeirləri oxucunun qəlbinə rahatlıqla yol tapa bilir. Bu poeziyada həm sevinc var, həm kədər; həm vüsal var, həm həsrət, həm sevgi var, həm də nifrət.

Fesih Alioğlunun vətən mövzusundakı şeirlərində Azərbaycan-Türkiyə qardaşlığı, bu qədim coğrafiyanın təbiətinin tərənnümü, xalqlarımızın başına gətirilmiş faciələr lirik dildə qələmə alınmışdır. Onun “Azərbaycan”, “20 yanvar”, “Qarabağ”, “Şəhidlər”, “Xocalı” və s. şeirlərini oxuduqca təsirlənməmək olmur. Azərbaycana olan sevgisinin başqa bir göstəricisi - “Sənə borcluyuq Öndərim” şeirində Türk dünyasının böyük oğlu, ümummilli liderimiz Heydər Əliyev şəxsiyyətinin əvəzolunmazlığı və ölməzliyini tərənnüm etmişdir.

İstedadlı şair Fesih Alioğlunun “Doğma Vətən Azərbaycan” və “Qəlbimin səsi” adlı iki kitabı işıq üzü görmüşdür.

Onu da qeyd edim ki, Fesih Alioğlunun Atatürk mərkəzində “Qəlbimin səsi” adlı şeirlər kitabının yüksək səviyyədə təqdimatı keçirildi. Təqdimatda




Azərbaycan poeziyasının tanınmış şairləri, yazarları, təşkilat rəhbərləri, rəssamlar, mətbuat nümayəndələri və onun dostları iştirak etmişdir. Çıxış edənlər Fesih Alioğlunun vətənpərvərliyi, yaradıcılığı və Azərbaycan poeziyasında sözün əsl mənasında çox sevilib-seçilən bir şair olduğunu vurğuladılar.

Onu da qeyd edim ki, Fesih Alioğlu xeyriyyəçi kimi də tanınır və fəaliyyət göstərir. Şəhid ailələri ilə görüşlər keçirir, onlara maddi və mənəvi dəstək olur. Fesih bu xoş və firavan günümüz üçün şəhidlərə borcluyuq deyir. Ona görə də şəhid ailələrinə xüsusi sevgi, qayğı göstərmək hər birimizin vətəndaşlıq, insanlıq borcudur.

Fesih onu da qeyd etdi ki, elə şəhid ailələri var ki, tez-tez yada salınır, eləsi də var ki, onlar bir qədər diqqətdən kənarda qalır. Biz şəhidlər arasında ayrı-seçkilik etməməliyik, — deyən Fesih Alioğlu mən bu yaxın günlərdə mütəmadi olaraq gedilməyən ailələrə gedib, onların könlünü xoş etmək fikrindəyəm.

Bunları deməkdə məqsədim sadəcə olaraq hamı bilsin ki, biz cəmi şəhidlərə bu günümüz üçün borcluyuq və imkanlı şəxsləri şəhid ailələrinə, imkansızlara maddi-mənəvi dəstək olmağa dəvət edirəm.

Fesih Alioğlunun yaxın vaxtlarda həm kitabı, həm də şeir diski işıq üzü görəcəkdir. İki kitab müəllifi olan şair Fesih Alioğlu bu günə kimi çox sayda fəxri diplom, medal və müxtəlif mükafatlarla təltif olunub.

Azərbaycan poeziyasının görkəmli şəxsiyyətlərinin və ictimai xadimlərinin böyük hörmətini və sevgisini qazanmış, poeziyamızın sevilən-seçilən şairi Fesih Alioğluna yaradıcılıq uğurları diləyir, uzun ömür, cansağlığı arzulayırıq.

**Rauf İLYASOĞLU.**